No: 01 2026
https://doi.org/10.64400/ea26-01-37
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

# MÜƏLLİMİN PEDAQOJİ SƏRİŞTƏLİLYİ VƏ TƏDQİQATÇILIQ QABİLİYYƏTLƏRİ

**İlahə ŞIXƏLİYEVA**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
*Yazışılan müəllif: yonorman@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 03.03.2026*
*Nəşr edilmə tarixi: 17.03.2026*

**AÇAR SÖZLƏR:**
müəllim, pedaqoji səriştəlilik, tədqiqatçılıq bacarıqları, pedaqoji proses, peşəkar inkişaf.

**XÜLASƏ**
Pedaqoji fəaliyyətdə müəllimin əməyi, onun elmi-pedaqoji fəaliyyəti və şəxsiyyəti təlim-tərbiyə prosesinin keyfiyyətinə birbaşa təsir göstərən əsas amillərdən biridir. Digər peşə sahələrindən fərqli olaraq müəllimin şəxsiyyəti yalnız peşəkar fəaliyyət çərçivəsində deyil, həm də sosial-mədəni mühitdə formalaşan dəyərlər sisteminə təsir edir. Müəllimin bilik səviyyəsi, pedaqoji ustalığı, mənəvi keyfiyyətləri və intellektual potensialı gənc nəslin dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.
Müasir təhsil sistemində müəllim yalnız bilik ötürücüsü deyil, həm də tədqiqatçı, innovator və pedaqoji prosesin təşkilatçısı kimi çıxış edir. Bu baxımdan pedaqoji səriştəlilik müəllimin nəzəri hazırlığı, metodik bacarıqları, kommunikativ kompetensiyaları və reflektiv düşünmə qabiliyyəti ilə sıx bağlıdır. Tədqiqatçılıq bacarıqları isə müəllimin təhsil prosesini analiz etməsinə, yeni metod və yanaşmaları tətbiq etməsinə, elmi əsaslandırılmış qərarlar qəbul etməsinə imkan yaradır.
Məqalədə müəllimin pedaqoji səriştəliliyinin struktur komponentləri, onun peşəkar inkişafında tədqiqat fəaliyyətinin rolu və müasir təhsil mühitində müəllimin innovativ funksiyaları təhlil olunur. Nəticə etibarilə göstərilir ki, pedaqoji səriştəlilik və tədqiqatçılıq qabiliyyətləri müəllimin peşəkar effektivliyinin əsas göstəricilərindən biri olmaqla yanaşı, təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm amil kimi çıxış edir.

## GİRİŞ

Cəmiyyətimizdə müəllimlik ən şərəfli və ən hörmətli hörmətli peşədir. Elə buna görə də cəmiyyətimizdə ən hörmətli şəxslərə, ziyalılara, yazıçı və şairlərə "müəllim" – deyə müraciət edilir. Müəllim elmi-pedaqoji fəaliyyəti ilə cəmiyyətin inkişafında, tərəqqisində və şəxsiyyətin hərtərəfli inkişafında böyük rol oynayır.

Müəllim əməyi elə müqəddəs və şərəfli əməkdir ki, dahi şəxslər, mütəfəkkirlər, bu peşəyə yüksək qiymət vermiş, müəllim peşəsi haqqında çox qiymətli fikirlər söyləmişlər. Dahi şairimiz Nizami Gəncəvi müəllimi günəşə bənzətmiş, Füzuli müəllimi gənc qəlbin memarı adlandırmış, Nəsirəddin Tusi müəllimi elmin çırağı, Məhəmməd Tağı Sidqi müəllimi dadlı meyvələr yetişdirən bağbana bənzətmiş, Hüseyn Cavid isə müəllim peşəsinə xitab edərək demişdir:

*Bəxtiyarsan əgər, çəkdiyin əmək*
*Versə cahan süfrəsinə bir çiçək.*

Bu müdrik fikirlər sırasında XX əsrin dahi şəxsiyyəti, böyük dövlət xadimi Heydər Əliyevin müəllimlik peşəsi haqqında dediyi sözlər öz xüsusi dəyəri, əhəmiyyəti və peşəyə verdiyi yüksək qiyməti ilə seçilir: "Müəllim adı dünyada ən yüksək addır. Mən yer üzündə müəllim adından yüksək bir ad tanımıram. Çünki hər birimizə təhsil verən, bilik verən, bu səviyyəyə çatdıran məktəbdir və məktəbdə təhsil verən müəllimdir. Orta məktəb olsun, yaxud ali məktəb, fərqi yoxdur, hamısında təhsil verən müəllimdir. Ona görə həyatımda ən çox sevdiyim adamlar mənim müəllimlərim olubdur. Mənə ilk təhsil verən, birinci sinifdən başlayaraq təhsil verən müəllimlərin hamısını böyük minnətdarlıqla xatırlayıram və bu fürsətdən istifadə edib müəllim peşəsinə bir daha yüksək hörmət-ehtiramımı bildirirəm. Sizə tövsiyə edirəm ki, müəllim adını həmişə yüksək tutasınız" (Əliyev, 2002, s. 301).

Dünya şöhrətli siyasətçi və uzaqgörən dövlət xadimi, Ulu öndər Heydər Əliyev ölkəmizin tərəqqisində elm və təhsilin rolunu yüksək qiymətləndirərək bu sahədə əsaslı islahatların keçirilməsinin təşəbbüskarı olmuş, proqram xarakterli nitq və çıxışlarında irəli sürdüyü müddəalarla

Azərbaycan təhsilinin inkişaf istiqamətlərini müəyyənləşdirmiş və 30 mart 1998-ci il tarixli sərəncamı ilə təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların aparılması, təhsilin inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün Dünya Bankının vəsait qoyuluşunu təmin etmək və Azərbaycan Respublikasında təhsil sahəsində islahatların aparılmasını təşkil etmək məqsədilə dövlət komissiyası yaradılmışdır. İşçi qrupu tərəfindən "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlanmış və 1999-cu ilin 15 iyununda ulu öndərimiz Heydər Əliyevin 168 saylı sərəncamı ilə bu proqram təsdiq edilmişdir (Azərbaycan Respublikası, 1999).

Ulu öndərimiz, digər sahələrlə yanaşı, milli təhsilimizin inkişafı, formalaşması və onun dünya standartları səviyyəsində qurulması işində də misilsiz fəaliyyət göstərmişdir. Onun dediyi kimi, hər bir dövlət istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq və hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Təhsil millətin gələcəyidir.

Bəli, təhsil millətin gələcəyi, müstəqil dövlətin bünövrəsi və inkişafıdır.

Ulu lider Heydər Əliyev hələ 1980-ci illərdə ali məktəb müəllimlərinin respublika iclasında çıxışında səriştəli müəllim problemini irəli sürürdü. O, müəllimin peşəkarlıq dətrəcəsinə yüksək dəyər verərək səriştəli müəllim obrazının dəyərlərini göstərirdi: O, müəllimin səriştəliliyinə yüksək qiymət verərək onu belə səciyyələndirirdi: "...hər ali məktəb müəllimi öz sahəsində səriştəli olmalı, geniş ümumi məlumata və pedaqoji qabiliyyət, həmçinin yaxşı vərdişlərə, o cümlədən mühazirə oxumaq, yaxşı dərs demək, öyrətmək, uşaqları tərbiyə etmək üçün bütün zəruri keyfiyyətlərə malik olmalıdır. Bunun üçün ali məktəb müəllimi gərək elmi biliklərdən əlavə, həm də yaxşı nitq və dil qabiliyyətinə, həm natiqlik məharətinə, bütün digər pedaqoji keyfiyyətlərə, vərdişlərə yiyələnməlidir, bütün bunlar ona, həqiqətən, çox yaxşı tərbiyəçi olmaq üçün imkan verir" (Əliyev, 1980). Göründüyü kimi, səriştəli müəllim modelinin mahiyyəti ulu öndərimizin müdrik fikirlərində əksini aydın və parlaq şəkildə tapmışdır.

Heydər Əliyev müəllim peşəsinin müqəddəs, müəllim adının yüksək ad olmasını dəfələrlə vurğulamış, onun cəmiyyətdə rolunu, tutduğu yeri olduqca düzgün xarakterizə etmişdir. Ulu Öndərimiz özlərini vətən torpağının bir zərrəsi sayan gənclərin tərbiyə edilib yetişdirilməsində müəllim əməyinə, onun şəxsiyyətinə yüksək qiymət vermişdir.

Qeyd edək ki, XXI əsr müasir dünyamız hər bir dövlətin qüdrətli təhsil səviyyəsi ilə, zəkanın, intellektin gücü ilə idarə olunur. Başqa sözlə desək, dünya birliyi yeni əsri "İntellekt əsri", Elm və texnika" əsri kimi qəbul etmişdir.

Müəllim elmin daşıyıcısı, yayıcısı, təbliğedicisi və maarifləndicisidir. Əlbəttə, pedaqoji fəaliyyətdə müəllimin əməyi, elmi-pedaqoji fəaliyyəti və özünün şəxsiyyəti təlim tərbiyə işində böyük əhəmiyyət kəsb edir. Başqa peşə sahiblərindən fərqli olaraq müəllimin şəxsiyyəti və onun pedaqoji fəaliyyəti ətraf aləmə, mühitə təsir göstərir. Müəllim ilk növbədə, öz şəxsiyyəti dərin biliyi, hərətərəfli hazırlığı ilə insanları maarifləndirir, gənc nəsli öyrədir, ona bilik verir, yetişən nəsli fəal həyata hazırlayır. Bu gün müasir müəllim milli – mənəvi və ümumbəşəri dəyərlərə sahib, geniş elmi dünya görüşünə, tədqiqatçılıq bacarığına malik olan, yüksək nəzəri biliyə, praktik pedaqoji bacarıq və qabiliyyətlərə yiyələnən, yeni təfəkkürlü, yüksək mədəniyyətli səriştəli bir mütəxəssisdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamında ölkədə məhz səriştəli müəllim kadrlarının hazırlığını mühüm bir vəzifə kimi qarşıya qoymuşdur (Aliyev, 2013). Məqsəd ölkədə səriştəli, bilikli, yüksək pedaqoji qabiliyyətlərə malik müəllim kadrlarının hazırlığı üçün, ən yeni texnologiyalara əsaslanan, müasir infrastruktura malik, yüksək keyfiyyət nəticələrinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan Avropa standartlarına uyğun, mükəmməl kadrlar yetişdirmmək və təkmil təhsil sistemi yaratmaqdır.

Bu məqsəddən irəli gələrək səriştəli müəllim kadrlarının hazırlanması, müəllimlərin peşə hazırlıqlarının müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, onların müasir innovativ metodlarla tədris prosesini qurması, təhsilin məzmununun cəmiyyətin tələblərinə, iqtisadi inkişafın tələblərinə uyğun şəkildə qurulması, müəllimin idarəedicilik funksiyasını artırması, ilboyu təhsillə, özünütəhsil

və özünütəkmilləşdirmə ilə məşğul olması, məktəbin maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsi məsələləri xüsusi yer tutmuşdur.

Məqsəd həmçinin müasir dövrə uyğun hərtərəfli inkişaf etmiş şəxs yetişdirmək, dərin bilikli, geniş dünyagörüşlü, yüksək əxlaq və mənəviyyata sahib insan yetişdirməkdir. Elə bir insan ki, keçmiş irsi yaşada bilir, bu günün reallığını görə bilir və gələcəyi təsvir edə bilir. Yəni yetişdirdiyimiz insan bu gün dünənkindən, sabah isə bugünkündən daha bilikli və daha hazırlıqlı olmalıdır.

Bu məqsəddən irəli gələrək səriştəli müəllim kadrlarının hazırlanması, müəllimlərin peşə hazırlıqlarının müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, onların müasir innovativ metodlarla tədris prosesini qurması, təhsilin məzmununun cəmiyyətin tələblərinə, iqtisadi inkişafın tələblərinə uyğun şəkildə qurulması, müəllimin idarəedicilik funksiyasını, pedaqoji qabiliyyət və pedaqoji ustalığı artırması, ilboyu təhsillə, özünütəhsil və özünütəkmilləşdirmə ilə məşğul olması, məktəbin maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsi məsələləri xüsusi yer tutmuşdur.

Məqsəd həmçinin müasir dövrə uyğun hərtərəfli inkişaf etmiş, yaradıcı şəxslər yetişdirmək, dərin bilikli, geniş dünyagörüşlü, yüksək əxlaq və mənəviyyata sahib insan yetişdirməkdir. Elə bir insan ki, keçmiş irsi yaşada bilir, bu günün reallığını görə bilir və gələcəyi təsvir edə bilir. Yəni yetişdirdiyimiz insan bu gün dünənkindən, sabah isə bugünkündən daha bilikli və daha hazırlıqlı olmalıdır.

Bu işdə müəllimin üzərinə böyük qayğılar düşərək ondan gərgin əmək, fədakarlıq, yaradıcı fəaliyyət, tədqiqatçılıq keyfiyyəti, yüksək pedaqoji ustalıq və pedaqoji qabiliyyət tələb olunur.

Bu gün ənənəvi təlimdən fərqli olaraq müasir dərsdə təhsil alanlar hazır bilikləri mənimsəmirlər. Müasir müəllim də biliyi hazır şəkildə tələbələrə vermir. Müəllim təhsil alanlara daha çox nəyi haradan öyrənməyi uşaqlara öyrədir və başqa sözlə desək öyrənməyi öyrədir. Bu müəllimin fasilitataor - yəni “ Bələdçi”, “İstiqamətverici” funksiaysıdır.

Böyük ərəb mütəfəkkiri İbn Xəldun deyirdi ki, “hər öyrədən müəllim deyil, kimdən öyrənirsənsə müəllim odur”. Müəllim uşaqlara fikirləri deyil fikilrləşməyi, düşünməyi öyrətməlidir. Böyük alman pedaqoqu Adolf Disterveq deyirdi ki, bacardıqca uşaqlara az bilik verin, daha çox onlara fikirləşməyi, düşünməyi öyrədin. Düşünən insan bilən insandır.

Üzeyir Hacıbəyov deyirdi ki, müəllim dərsi elə keçməlidir ki, biliyi şagird kəşf yolu ilə özü tapsın. Yəni sualın cavabı sual verənin özünə tapdırılsın. Buna Sokrat metodu, pedaqogika elmində isə evristik metod deyilir. Bu Arximedin ”Evrika” -“Tapdım” sözündən meydana gəlmişdir. Cavab dialoqlar, köməkçi suallar vasitəsilə sual verənin özünə tapdırlır. Bu sual verəni təfəkkür əməliyyatına, düşünməyə, tədqiqatçılığa, təhlil etməyə, yaradıcılığa sövq edir.

Tədqiqatçı, yaradıcı müəllim uşaqların idrak fəallığını inkişaf etdirərək, onları axtarıcılığa, tədqiqatçılığa istiqamətləndirərək biliyi onların özlərininin əldə etməsinə kğmək edir, yol göstərir, məsləhət verir, bələdçilik edir. Müəllimin belə fəaliyyəti fasilitator adlanır. Təhsil alanlıarın funksiyası isə araşdiricilıq, axtarıcılıq, tədqiqatçılıq adlanır.

Müəllimlik ilk növbədə yaradıcı bir peşədir. Çünki o, hazır göstərişlərlə, reseptlərlə işləmir. O sinifdə sanki bir yaradıcılıq laboratoriyasındadır. Ona görə də obrazlı şəkildə deyirlər ki, müəllim bir fotoqraf kimi deyil, bir rəssam kimi işləməlidir. Müəllimin fəaliyyətində hər bir konkret halda vəziyyəti düzgün təhlil edib, uğurlu çıxış yolu tapmaq, məsələlərə müstəqil və yaradıcı yanaşmaq, qeyri-standart qərarlar qəbul etmək tələb olunur. Bunun üçün pedaqoji nəzəriyyəyə və qabaqcıl təcrübəyə mükəmməl yiyələnmək, dərin ümumi və ixtisas biliyinə sahib olması əsas şərtdir. Bilik yaradıcı işdə müəllimin əsas silahıdır. Y.A.Komenski biliksiz müəllimi işıqsız lampaya, susuz bulağa bənzətmişdir.

Müəllimlər uşaqları ma¬raqlandırmaq, təəccübləndirmək, heyrətləndirmək üçün onları hər cəhətdən qabaqlamağa məcburdur. Bu, müəllimin təşkil etdiyi dərs prosesinin ən vacib amili kimi qarşılıqlı ünsiyyətin, öyrənmə ünsiyyətinin yaranmasında bir vasitə olmalıdır. Müəllim bu vasitədən istifadə etməklə şagird-lərinin idrak fəaliyyətini daha səmərəli qura bilər, onları tədqiqatçılığa istiqamətləndirə bilər və bu sahədə müəyyən nəticələrə nail ola bilər.

Bütün bunların daha uğurlu alınması müəllimin, ilk növbədə, ixtisasını dərindən bilməsi və geniş ümumi elmi dünyagöraşə sahib olması tələb edilir. Həm də bu biliklərə dina¬mik yanaşmağı,

onları ardıcıl və sistemli olaraq inkişaf etdirməyi, özünün daim tədqiqatçılıqla məşğul olması mühüm bir vəzifə kimi qarşıya qoyulur.

Müəllimlik özü böyük bir yaradıcılıq, tədqiqatçılıq işidir. Hər bir dərs bir tədqiqat əsəridir. Hər bir dərs şagirdə ömür boyu yadında qalan bir hədiyyədir. Hər dərsin məq¬sədi, məqsədə çatmaq üçün metodları və əldə edilmiş nəticələri olmalıdır.

Bəs, "Tədqiqatçı müəllim kimdir?"? "Hansı müəllimə tədqiqatçı müəllim demək olar?" Əl¬bəttə, əgər müəllim təhsil alanların bilik və dünyagörüşünü yüksəltmək üçün müx¬təlif elmi məsələləri təhsil alanlarla birlikdə təhlil edir, müvafiq qərarlar qəbul edirsə, bu barədə təhsil alanlarla fikir mübadiləsi, rəy sorğusu aparırsa, gərgin elmi müzakirələr aparırsa bu müəllimin yaradıcı və tədqi-qatçılıq bacarığıdır.

Yaradıcılıq müəllimdən bütöv pedaqoji prosesi müşahidə və təhlil etməyi, onun qanunauyğunluqlarını nəzərə almağı, pedaqoji problemlərin optimal həlli yollarını müəyyən etməyi nəzərdə tutur. Təbii ki, yarardıcı müəllimin yaradıcı tələbə və şagirdləri də olacaq və müəllimin düzgün istiqaməti ilə onlar da yaradıcı fəaliyyyətə qoşulacaq, tədqiqatçılıq işlərinə yönələcəklər.

Yaradıcılıq mürəkkkəb pedaqoji, psixoloji proses olmaqla insanda yüksək mədəniyyət və mənəviyyat da formalaşdırır. Bu baxımdan əsil yaradıcı fəliyyətlə məşğul olanlar mədəni, mənəvi və nəcib əxlaqi keyfiyyətlərə malik insanlardır.

Yaradıcılıq tədqiqatçılığın əsas şərtidir. Yaradıclıq olmadan tədqiqatçılıq bir nəticə verməz. Buna görə də müəllimin peşə fəaliyyətində tədqiqatçılıq qabiliyyəti mühüm yer tutur. "Müəllimin tədqiqatçılıq qabiliyyəti-pedaqoji situasiyaları və prosesləri aydın dərk etmək və obyektiv qiymətləndirmək bacarığında özünü göstərir" (İbrahimov, 2013).

Təhsil alanlarda tədqiqatçılığın inkişaf etdirilməsinə nail olmaq üçün onları ilk kitab və kitabxanalardan, elmi mənbələrdən, internet resurslarından, texniki vasitələrdən düzgün istifadə etməyi öyrətmək lazımdır. Təhsil alanlar mənbələrdən istifadə edərkən, ədəbiyyatı oxuyub öyrənərkən qeydlər aparmalı, çıxarışlar etməlidrlər. Mənbələr üzərində işləmək, kitab və kitabxanalardan istifadə etmək bacarıq və vərdişlərinə yaxşı bələd olmaq tədqiqatçılığın mühüm şərtlərindən biridir.

Tələbə və şagirdlərin elmi konfranslarında, Tələbə Elmi Cəmiyyətinin tədbirlərində, olimpiadalarda, elmi müsabiqələrdə, viktorinalarda, disput və diskusiyalarda, elmi müzakirələrdə iştirak etməsi onların tədqiqatçılıq qabiliyyətlərinin inkişafına qüvvətli təsir göstərir.

Tələbə və şagirdlərin tədqiqatçılıq qabiliyyəti onların daha yeni biliklər qazanmağa stimul yaradır. Bu zaman tədris prosesinə elmi tədqiqat elementləri, yaradıcılıq ünsürləri daxil olur. Təhsil alanlar elmi nəzəri təhlilin aparılması metodlarından istifadə edir, fərziyyələr irəli sürür və onu yoxlamaq üçün testlərdən, təcrübələrdən istifadə edirlər.

Müəllim və tələbələrin zehni qabiliyyətlərinin, idrak fəaliyyətinin gücləndirilməsi, tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsi onlarda axtarış tələbatı, müstəqil işləmək meyli və bacarığı yaradılmasına əlverişli imkanlar yaradır.

## ƏDƏBİYYAT


1. Aliyev, H. A. (2002). Təhsil millətin gələcəyidir (M. Mardanov & Ə. Quliyev, Eds.). Bakı: Təhsil.
2. Azərbaycan Respublikası. (1999). Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı. Bakı.
3. Aliyev, H. A. (1980, August 21). Ali məktəb işçilərinin respublika müşavirəsində nitq. Xalq qəzeti, August 24.
4. Aliyev, I. (2013, October 24). Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası haqqında sərəncam. Xalq qəzeti, October 25.
5. İbrahimov, F. N., & Hüseynzadə, R. L. (2013). Pedaqogika (Vol. 1). Bakı: Mütərcim.

## ABSTRACT

## TEACHER PEDAGOGICAL COMPETENCE AND RESEARCH SKILLS

**Ilaha Shikhaliyeva**

In pedagogical activity, the teacher’s professional work, scientific-pedagogical engagement, and personal characteristics constitute key factors influencing the effectiveness of the teaching and learning process. Unlike many other professions, the teacher’s personality exerts a significant impact not only within the educational environment but also on the broader social and cultural context. The teacher’s knowledge level, pedagogical mastery, moral values, and intellectual capacity play a decisive role in shaping the worldview and personal development of the younger generation.

Within modern educational systems, the teacher functions not merely as a transmitter of knowledge but also as a researcher, innovator, and organizer of the pedagogical process. Pedagogical competence therefore encompasses theoretical knowledge, methodological skills, communicative abilities, and reflective thinking. Research skills enable teachers to analyze educational practices, apply innovative approaches, and make evidence-based pedagogical decisions.

The article examines the structural components of pedagogical competence, the role of research activity in professional development, and the innovative functions of teachers in contemporary educational environments. The findings indicate that pedagogical competence and research capacity represent essential indicators of professional effectiveness and serve as important factors in improving educational quality.



**Keywords:** *teacher, pedagogical competence, research skills, pedagogical process, professional development.*



## РЕЗЮМЕ

## ПЕДАГОГИЧЕСКАЯ КОМПЕТЕНТНОСТЬ И ИССЛЕДОВАТЕЛЬСКИЕ СПОСОБНОСТИ УЧИТЕЛЯ

**Илаха Шыхалиева**

В педагогической деятельности профессиональный труд учителя, его научно-педагогическая активность и личностные качества являются важнейшими факторами, определяющими эффективность образовательного процесса. В отличие от представителей других профессий, личность учителя оказывает значительное влияние не только на образовательную среду, но и на социально-культурное пространство общества. Уровень знаний, педагогическое мастерство, нравственные качества и интеллектуальный потенциал учителя играют ключевую роль в формировании мировоззрения молодого поколения.

В современной системе образования учитель выступает не только как носитель знаний, но и как исследователь, новатор и организатор педагогического процесса. Педагогическая компетентность включает теоретическую подготовку, методические навыки, коммуникативные компетенции и рефлексивное мышление. Исследовательские способности позволяют учителю анализировать образовательный процесс, внедрять инновационные методы и принимать научно обоснованные педагогические решения.

В статье анализируются структурные компоненты педагогической компетентности, роль исследовательской деятельности в профессиональном развитии учителя и его инновационные функции в современном образовательном пространстве. Делается вывод о том, что педагогическая компетентность и исследовательские способности являются важными показателями профессиональной эффективности и значимым фактором повышения качества образования.

**Ключевые слова:** *учитель, педагогическая компетентность, исследовательские навыки, педагогический процесс, профессиональное развитие.*